# Şairin poeziya dünyasından




Şair şəxsiyyətini mahiyyətinə görə mənalandırmağa çalışanların fikirlərində çalarlar saysız və hesabsız olsada onları bir şairin müəllifi olduğu aşağıdakı sadə misralarında ümumiləşmiş təsviri qənaətləndiricidir desək yanılmarıq.

Həyatın hər anın duyğularında,
Əks edib yaradan, qurandı şair.
Məqsədi təmizlik, nəcib əməllər,
İncə mirvaritək gözəldir şair.

Gördüyü bir şeydən ilham alanda,
Tez onu tarixə yazandı şair.
Əyrini, düzü öz sözlərilə,
Cəmiyyət üzünə deyəndi şair.

Adətən şairlərin yaradıcılıq keyfiyyətlərini onların nə dərəcədə poetik düşüncəyə malik olmaları ilə şərtləndirirlər.

Yunan mənşəli söz kimi təqdim olunan poeziya mahiyyətinə görə - dilin məna, səs və ritm elementlərini müəyyən nizam içində istifadə etmə sənəti olaraq başa düşülsədə geyri xəttiliyinə görə konkret tərifini vermək mümkünsüzdür.

Poeziya anlayışına dəyər verən mütəfəkkirlər qeyd edirlər ki, poeziya bilikdir, ruhun xilasıdır, fədakarlıqdır, bu, dünyanı dəyişən hərəkətdir, tarixin əlində alət deyil, daha böyük qüvvədir.

Bu baxımdan hər bir şairin öz poeziya dünyası var. O cümlədən özünü yaradıcılığına aid olan misralarında “Şerü-qəzəlin Nahidi, Lənkəranın Vahidi” kimi təqdim edən Xanəhməd Nahidin də mənəvi keyfiyyətə təsir edə bilən özünə məxsus poetik sərvəti vardır. Burada qəzəllər, mənzum məktublar, müxtəlif mövzularda və dillərdə şeirlər yer almışdır.

Poeziyanın mövzu baxımından təsir imkanlarına görə pastrol, dramatik, didaktik, lirik, epik, konkret, təcrübi, simfonik, satirik, müasir bölgülərlə təsnif olmasında müəyyən qanunauyğunluq vardır.

Xanəhməd Nahidin poetik dünyasında qeyd olunan cəhətlər (“Gözəldir qəzəlim”, Bakı, ”Adiloğlu”. 2012, 224 səh.) təhlil edilərkən digər şairlərdən fərqli olaraq onun didaktik poeziyası diqqətti daha çox cəlb edir.

Şairin “Həndəsə dərsi” başlığına aid olan misralarda insanı düşündürən poetiklik onun təfəkkürünü formalaşdıran didaktik imkanlarını artırır.

Şairin ömür yolu son dərəcə dərdli, enişli və yoxuşlu olması onun dörd misralı şeirində aydın dərk olunur.

Xanəhməd şair kimi doğulsa da, pedaqoq kimi yaşadığı kənd məktəbində fizika-riyaziyyat fənərini tədris etməklə şagirdlərin bilik, bacarıq və vərdişlər qazanmalarını tərbiyə etməyə şərəfli ömrünü sərf etmişdir. Təqaüdə çıxana qədər, bir müddət çalışdığı məktəbin direktoru vəzifəsini layiqincə yerinə yetirən Xanəhməd müəllim Azərbaycan Yazıçılar Birliyinin üzvü kimi ədəbi mühitin ən fəllarından olmuşdur.

1991-ci ilin yayında Bakıda fəaliyyət göstərən “Məcməüs-şüəra” ("Şairlər yığıncağı") ədəbi məclisinin tanınmış üzvlərindən Hacı Mail, Rüstəm Samit, Ələkbər Şahid, Həkim Qəni, Hacı Ələmdar Mahir və başqalarının Lənkəranda fəaliyyət göstərən “Fövcül-füsəha” ("Gözəl danışanlar dəstəsi") məclisinin iştirakçıları ilə görüşə gəlirlər. Həmin məclisdə öz təqdimatı ilə şair Xanəhməd sanki imtahan verib Nahid təxəllüsunu qazanır.

"Şairlər yığıncağı" və "Gözəl danışanlar dəstəsi" bütün dövrlərdə insanların mənəvi cəhətdən motivasiya olunmasına xidmət etmişdir. Bu yaxınlarda Lənkəran rayonun Separadı kəndinin ziyalılarından, ömrünün müdriklik dövrünü yaşayan Cavanşir Hüseynov və Şöhrət Cəfərovun təşəbbüsləri ilə Xanəhməd Nahidlə keçirilən şaf bir görüşdən məmnun olduq.Hər cür qeybətdən uzaq olan sadə bir dinləmədə şair poetik düşüncələrini ifadə etdi.

Onun hamı üçün müqəddəs olan anaya həsr etdiyi “Günəşim-anam” şeri öz poetik bənzərsizliyi ilə bizdə yeni ovqat yaratdı.

Şeirdən bir parçanı oxucalara təqdim etməyi məqsədə uyğun sayırıq.

Cəfəŕov, Şəddat Muğdat oğlu.

Kredo 2019.- 16 oktyabr.- S.16.